1-_Layout 1 14.07.2021 10:03 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 13 (603)

15 iyul 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## Zəfər salnaməsi yazan Ordum!



Artıq aforizmə çevrilmiş bir fikir başəriyyət üçün aktuallığı ilə seçilir: “Ordun varsa, yurdun var!”

Azərbaycan xalqı bu gün, əslində, ötən il sentyabrın 27-dən başlayaraq düşmənə layiqli cavab verib, 44 günlük Vətən müharibəsində Zəfər çalan Ordusu ilə fəxr edir, qürur duyur! Bu şanlı Qələbənin müəllifi başda Silahlı Qüvvələrin Ali Baş Komandanı, “Dəmir yumruq”la düşmənə öz yerini göstərən Prezident İlham Əliyev olmaqla, Ordumuzdur!

Azərbaycan Silahlı Qüvvələrinin yaradılması və formalaşması ötən əsrin 90-cı illərinin əvvəllərində dövlət müstəqilliyinin bərpasından, daha doğrusu, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra başladı.

Ermənistanın təcavüzə məruz qoyduğu Füzuli rayonunun böyük bir ərazisi yenicə yaradılan Milli Ordumuzun gücü ilə, Ümummilli Liderin qayıdışı şərəfinə işğaldan azad edildi. Bu, hələ ordu quruculuğunun ilk dövrü idi. Həmin ordu ilə torpaqlarımızı işğaldan azad edilməsi absurd görünürdü. Məhz buna görə də Ulu Öndər dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün iqtisadiyyatın inkişafı ilə yanaşı, ordu quruculuğunu da siyasətinin əsas hissəsi hesab edirdi.

Ulu Öndərin siyasi kursunu layiqincə və şərəflə davam etdirən Prezident İlham Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin regionun aparıcı, NATO standartları çərçivəsində formalaşması üçün 2003-cü ildən yeritdiyi siyasət ötən ilin 44 günlük Vətən müharibəsində özünü əsaslı şəkildə təsdiqlədi.

Nəhayət, Ali Baş Komandanın əmri ilə Müzəffər Ordumuz 44 gün ərzində zəfər tarixi yazdı. Başda Ali Baş Komandan İlham Əliyev olmaqla, əsgər və zabitlərimiz döyüş meydanlarında şücaət göstərdi, qəhrəmanlıq nümayiş etdirdi. Düşmənin silahlı qüvvələrinə ağır zərbələr vuruldu, torpaqlarımız işğaldan azad edildi.

Hələ 2003-cü ildə Prezident kimi andiçmə mərasimində cənab İlham Əliyev vəd etmişdir ki, ölkəmizdə bir dənə də olsun çadır şəhərciyi qalmayacaq, qalmadı!

Ali Baş Komandan ona da əmin idi ki, xalq-dövlət-ordu birliyi işğalda qalan tarixi ərazilərimizi tam azad edəcək və o yerlərə yeni növraq gələcək. Bütün bunların isə zamana ehtiyacı var idi. Bu gün həmin vədin də gerçəkləşdiyinin xoşbəxt şahidləriyik!

Müstəqil dövlətimizin şanlı zəfər tarixini yazan Azərbaycan Ordusu Ermənistanın təcavüzkarlığına layiqli cavab verdi! Qələbə sevincləri bir-birinin ardınca yaşandı. Ali Baş Komandan İlham Əliyevdən hər gün eşitdiyimiz qələbə xəbərləri ermənilərin və onların havadarlarının canına üşütmə saldı. 2016-cı ilin aprelində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin, eləcə də zəfər salnaməmizin yazıldığı Lələtəpənin düşməndən azad edilməsi ilə təsdiqlədik ki, bir qarış torpağımız da yağı tapdağında qalmayacaq!

... Vətən müharibəsi başa çatıb. Bu müddət ərzində Qarabağa yeni nəfəs gətirəcək xeyli işlər görülüb. Onlardan ən əsası 30 ilə yaxındır xəyallarımızda gətdiyimiz Şuşaya, Laçına, Kəlbəcərə yolların çəkilməsi, vandalların barbarlıq siyasəti nəticəsində tamamilə xarabalığa çevrilən yurdlarımızın yenidən bərpası istiqamətində atılan ilk addımlardır. Uğurlu və davamlı olsun.

44 gün ərzində Müzəffər Azərbaycan Ordusu Ermənistanın silahlı quldurlarının saxta mifini darmadağın etdi. Qəhrəman əsgər və zabitlərimiz Azərbaycanın gücünü göstərdi. Düzgün planlaşdırılan və həyata keçirilən hərbi əməliyyatlar texniki imkanlardan istifadə edərək, cəsur igidlərimizin qəhrəmanlığına, rəşadətinə söykənərək, xalqımız, ordumuz, əlbəttə, Ali Baş Komandanımız başda olmaqla, mümkün olmayanı gerçəkləşdirdi - işğalçıları ağ bayraq qaldırıb məğlubiyyətlərini boyunlarına almağa məcbur etdi. Bu, əslində, düşmənin diz çökməsi demək idi.

Məhz hərb tarixinə zəfər yazan Ordumuzun rəşadətli döyüşləri sayəsində 3 yüzdən çox yaşayış məntəqəsi, eləcə də qədim, doğma, Qarabağın zümrüd tacı olan Şuşanı işğaldan azad etdik. Bundan sonra silahlı quldur dəstələri haqqında “yenilməz”, “basılmaz” mifi yaradan düşmən təslim oldu, kapitulyasiya aktına imza atdı. Kəlbəcər, Laçın, Ağdam da məhz həmin təslim aktından sonra döyüşsüz qaytarıldı. Düşmən buna məcbur etdirildi...

Müharibə artıq arxada qalıb. Müzəffər Azərbaycan Ordusu bizə Qələbənin yekunu olaraq Zəfər paradının sevinclərini də yaşatdı. Dövlət başçısının da qeyd etdiyi kimi, İkinci Qarabağ savaşı bizim əyilməz iradəmizi, birliyimizi, müharibə, qələbə rəmzinə çevrilən “Dəmir yumruğ”umuzun gücünü göstərdi: “Bu həm birlikdir, həm gücdür. Cəmiyyətimizdə birlik də var, ölkəmizin gücü də var və həmişə olacaq. Əgər kimsə Ermənistanda bu gün revanş hissi ilə yaşayırsa, böyük səhv edir. O 44 günlük müharibəni onlar heç vaxt unutmasınlar. Bundan sonra əgər kimsə Azərbaycan xalqını təhqir etməyə çalışsa, elə dərsini alacaq ki, o 44 günlük müharibə onun yanında yalan olacaq...”, - deyə dövlət başçısı bildirdi.

Azərbaycan Prezidenti bir daha bəyan etdi ki, biz tarixi ədaləti bərpa etdik. Biz göstərdik ki, heç kim xalqımızın iradəsi qabağında dura bilməz.

Azərbaycan Prezidenti onu da bildirdi ki, artıq torpaqlar azad edilib, Böyük Qayıdış və inkişaf prosesləri başlanmalıdır: “Ona görə, əlbəttə, biz bütün bu işləri daha da fəal, daha da məqsədyönlü şəkildə aparmalıyıq ki, Azərbaycanın imkanlarını genişləndirək və ölkəmizin inkişaf dinamikasını artıraq”.

Müharibə başa çatıb. Bundan sonra icra olunan bərpa və yenidənqurma Böyük Qayıdışın əsaslarını qoyub. Bu isə onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur: “...Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin...”.

Bir sözlə, Ordumuzun zəfər salnaməsi hərb tariximizin şərəfli səhifələrinə yazılıb. Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyev heç də təsadüfi deməyib: **“Müharibə Ermənistanın yadından çıxmasın, unutmasınlar ki, “Dəmir yumruq” yerindədir”**.

**“Azərbaycan” qəzetinin materialları əsasında hazırlanıb.**

## Cinayətkarlıqla mübarizə və ictimai asayişin mühafizəsi etibarlı təmin olunur



**İyulun 9-da Daxili İşlər Nazirliyində 2021-ci ilin birinci yarısında cinayətkarlıqla mübarizə, asayişin qorunması və təhlükəsizliyin təmini sahəsində fəaliyyətin nəticələri və qarşıda duran vəzifələrə həsr olunmuş videokonfrans formatında Kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov bu ilin birinci yarısının növbəti uğurlu hesabat dövrlərindən olduğunu, daxili işlər orqanları və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, xüsusi karantin rejiminə nəzarətin həyata keçirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində gündəlik vəzifələrin öhdəsindən layiqincə gəldiyini, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə və işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyi etibarlı təmin etdiyini vurğulayıb. Ötən 6 ayda daxili işlər və prokurorluq orqanları üzrə 14.058 cinayətin qeydə alındığını, açılmasının isə xeyli yaxşılaşdığını qeyd edib.

Nazir cənab Prezidentin sərəncamları ilə polisin və Daxili Qoşunların peşə bayramları ərəfəsində də 26 əməkdaşın və 12 hərbi qulluqçunun dövlət mükafatlarına layiq görüldüyünü, rəhbər vəzifəli 4 əməkdaşa ali xüsusi rütbə verildiyini, həmçinin, Vətən müharibəsində döyüş tapşırıqlarını yerinə yetirən 1690 hərbi qulluqçunun dövlət təltiflərinə, o cümlədən, 4 nəfərə “Vətən müharibəsi qəhrəmanı” adının verildiyini, habelə xidmətdə fərqlənmiş yüzlərlə əməkdaşın və hərbi qulluqçunun mükafatlandırıldığını bildirib.

General-polkovnik V.Eyvazov bütün bunlarla bərabər, fəaliyyətdə nöqsan və çatışmazlıqların mövcudluğunu, onların ətraflı müzakirə edilib əlavə təşkilati tədbirlər müəyyən edilməklə həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Hesabat məruzəsi ilə çıxış edən nazirin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimov qeydə alınmış cinayətlərin 84,3 faizinin böyük ictimai təhlükə törətməyən və az ağır növlər olduğunu, ötən ilin müvafiq dövrü ilə müqayisədə qəsdən adam öldürmələrin 1,3, adam öldürməyə cəhdlərin 11, oğurluqların 31, soyğunçuluqların 34, quldurluqların 8, avtonəqliyyat vasitələrinin qaçırılmasının 9,6, xuliqanlıqların 6,4, odlu silahın tətbiqi ilə baş verən cinayətlərin 32, yol-nəqliyyat hadisələrinin 0,5, qəzalarda ölənlərin sayının 11, xoşagəlməz halların sayının 0,5 faiz azaldığını, habelə prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 207 cinayətin açıldığını, axtarışda olan 2200, o cümlədən, ağır və xüsusilə ağır cinayətlərdə təqsirləndirilən 248 şəxsin tutulduğunu vurğulayıb.

Mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilmiş tədbirlərlə 435 kriminal qrupun zərərsizləşdirildiyini, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 110 nəfərin cinayət məsuliyyətinə cəlb edildiyini, ötən ilin 6 ayı ilə müqayisədə qeyri-leqal dövriyyədən 776 kiloqram çox və ya 1 ton 843 kiloqram narkotik vasitə çıxarıldığını, qanunsuz kultivasiya olunan 140 ton narkotik xassəli bitkinin aşkarlanıb məhv edildiyini nəzərə çatdırıb.

Məruzəətrafı çıxışlarda nazirliyin aparatının struktur qurumlarının və ərazi polis orqanlarının rəisləri görülmüş işlər, əldə olunmuş nəticələr, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə planlaşdırılan konkret tədbirlər barədə məlumat veriblər.

İclasa yekun vuran daxili işlər naziri Vilayət Eyvazov hesabat dövründə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi polis orqanlarında ümumi işə mənfi təsir göstərən halları nəzərə çatdıraraq diqqəti onların aradan qaldırılması yollarına və qarşıda duran digər vəzifələrə yönəldib, tapşırıq və tövsiyələrini verib. Cinayətkarlığa qarşı mübarizədə, asayişin və daxili təhlükəsizliyin qorunmasında əldə edilmiş müsbət nəticələrin inkişaf etdirilməsini, şəxsi heyətin daha böyük əzmlə çalışmasını və əməkdaşların peşəkarlığının yüksəldilməsini hər bir polis orqanının rəhbərindən tələb edib.

Ayrıca olaraq narkotiklərlə mübarizənin vəziyyətinə toxunan nazir V.Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirib.

Eyni zamanda, vətəndaşlara müraciət edərək narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlığın bütün bəşəriyyəti narahat etdiyini, bu bəlaya qarşı mübarizənin Azərbaycanın hüquq mühafizə orqanlarının başlıca vəzifələrindən biri olduğunu, qanunsuz dövriyyədən çıxarılan narkotiklərin həcminin ilbəil artması ilə bərabər ölkəyə gətirilməsinə edilən cəhdlərin çoxaldığını, belə bir vəziyyətin gənclərin narkotik aludəçisi olmaq təhlükəsini artırdığını bildirib.

Problemlə bağlı mediada gedən tənqidi yazıların, sosial şəbəkələrdə aparılan müzakirələrdə səsləndirilən müxtəlif fikirlərin normal hal olduğunu və hər kəsin mövqeyinə və ictimai rəyə hörmətlə yanaşıldığını, bütövlükdə məsələyə cəmiyyətin diqqətindən razılığını ifadə edib. Bu təhlükəni aradan qaldırmaq üçün hər kəsin ümumi işə real köməkliyinin vacibliyini vurğulayıb. Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə vətəndaşların məlumatları əsasında müsbət nəticələri olan bir çox əməliyyat tədbirlərinin keçirildiyini bildirib və fəal vətəndaşlıq mövqeyi sərgiləyən şəxslərə təşəkkür edib.

Yeniyetmələr və gənclər arasında aparılan izahat işlərinə də toxunan Nazir bu işin konkret həyat nümunələrinə əsaslandıqda daha təsirli olduğunu, bütün hallarda əsas diqqətin ölkədə narkotiklərə tələbatın azaldılmasına yönəlməsinin əhəmiyyətini nəzərə çatdırıb. Eləcə də COVID-19 pandemiyasından əvvəl respublikanın bütün təhsil müəssisələrində antinarkotik mövzuda davamlı tədbirlərin keçirildiyini, həmin tədbirlərdə gənclər təşkilatlarının fəallığını, ölkədə təbliğ edilmiş xüsusi karantin rejimi ilə əlaqədar antinarkotik təbliğat sahəsində vətəndaşların köməyinə həmişəkindən çox ehtiyac duyulduğunu bildirib. Daxili İşlər Nazirliyinin bu məsələdə cəmiyyətin yetkin təbəqəsinə, sağlam düşüncəli hər bir vətəndaşa güvəndiyini, mediadan, sosial şəbəkələrin aktiv istifadəçilərindən, o cümlədən, bloggerlərdən daha böyük fəallıq gözləntilərinin olduğunu, “Narkotiklərə yox!” devizinin hamılıqla dəstəklənəcəyinə inandığını qeyd edib.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqətə, fəaliyyətə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada ictimai asayişin mühafizəsi, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da layiqincə və tam yerinə yetiriləcəkdir.

**DİN-in Mətbuat xidməti**

# Daxili Qoşunların Hərbi Şurasının videokonfrans formatında iclası keçirilib

İyulun 8-də Daxili Qoşunların Baş İdarəsində videokonfrans formatında "2021-ci ilin 1-ci yarımilində Daxili Qoşunların xidməti-döyüş fəaliyyətinin yekunları"na həsr olunmuş Hərbi Şuranın iclası keçirilib.

İclasda giriş sözü ilə çıxış edən Hərbi Şuranın sədri, daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov qeyd edib ki, 2021-ci ilin 1-ci yarımilinin ən yaddaqalan hadisəsi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin iştirakı ilə Daxili Qoşunların Bakı şəhərinin Sabunçu rayonunda yerləşən hərbi hissəsinin yeni hərbi şəhərciyinin açılış mərasimi olub. Bu, ümumilikdə, qoşunların xidməti-döyüş fəaliyyətinə verilən yüksək qiymət olaraq, daha yaxşı nəticələrin əldə olunması üçün məsuliyyətverici amil kimi qəbul olunub.

Diqqətə çatdırılıb ki, ötən dövr ərzində Daxili Qoşunlar tərəfindən mötəbər beynəlxalq idman tədbirləri zamanı qarşıya qoyulmuş tapşırıqlar, həmçinin, işğaldan azad olunmuş ərazilərdə və koronovirus pandemiyası dövründə xüsusi karantin rejiminin təmin olunması ilə əlaqədar müəyyən edilmiş vəzifələr polis əməkdaşları ilə birlikdə uğurla həyata keçirilib və bu fəaliyyət davam etdirilməkdədir.





General-leytenant Şahin Məmmədov iclasın gündəliyini elan etdikdən sonra 2021-ci ilin müvafiq dövrü ərzində Daxili Qoşunların xidməti-döyüş fəaliyyətinin yekunları barədə daxili qoşunlar komandanının 1-ci müavini-qərargah rəisi general-mayor Tofiq Hüseynov məruzə ilə çıxış edib.

Məruzədə bildirilib ki, ölkəmizin müstəqilliyinin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olan Daxili Qoşunların şəxsi heyəti ictimai təhlükəsizliyin təmin edilməsində və ictimai qaydaların qorunmasında, cinayətkarlığa qarşı mübarizədə fəal iştirak edərək, qarşıya qoyulmuş tapşırıqların icrasını tam təmin etməklə yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik olduğunu nümayiş etdirib. Yarımil ərzində dövlət və hərbi obyektlərin mühafizəsi təmin edilib.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanına uyğun olaraq, qoşunların şəxsi heyəti polis əməkdaşları ilə birgə işğaldan azad edilmiş ərazilərdə ictimai asayişin qorunması, həyat təminatlı mühüm əhəmiyyətli obyektlərin mühafizəsi, terror, təxribat və digər qanunazidd fəaliyyətin qarşısının alınması, giriş-çıxışın xüsusi rejiminin tətbiq edilməsi və digər mühüm vəzifələrin yerinə yetirilməsi üzrə qarşıya qoyulmuş tapşırıqların icrası məqsədilə post-patrul xidmətinin aparılmasına cəlb olunub.

Həmçinin, Bakı şəhərində keçirilmiş "Formula-1 Azərbaycan Qran Pri" yarışı və Bakı Olimpiya Stadionunda futbol üzrə Avropa çempionatının final mərhələsinin oyunları zamanı ictimai asayişin təmin olunması üzrə xidmətin aparılmasına cəlb edilən şəxsi heyət tərəfindən qarşıya qoyulmuş tapşırıqlar yüksək peşəkarlıqla, tam həcmdə icra edilib.

Daxili Qoşunların istehkamçıları tərəfindən də qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqları uğurla yerinə yetirilib. İlk olaraq qeyd edilməlidir ki, istehkamçılardan ibarət bir qrup şəxsi heyət Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşları ilə birgə işğaldan azad olunmuş Şuşa şəhərinin, Füzuli, Zəngilan və Qubadlı rayonlarının ərazisinin minalardan təmizlənməsi üzrə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunub. Beynəlxalq idman tədbirləri zamanı da istehkamçıların fəaliyyəti qənaətbəxş olub.

Bundan əlavə, gündəlik xidməti fəaliyyətdə döyüş təlimi prioritet məsələ kimi qəbul edilib. Belə ki, hərbi qulluqçuların səhra təcrübəsinin artırılması, onların fərdi bacarıqlarının və birgə fəaliyyətlərinin təkmilləşdirilməsi məqsədilə şəxsi heyət səhra təlimlərinə, atıcılıq məşqlərinə cəlb olunub, ixtisaslı hərbi qulluqçularla metodiki təlim toplanışları təşkil olunub keçirilib. Yarımil ərzində şəxsi heyətin döyüş hazırlığı mütəmadi olaraq yoxlanılıb.

Ötən müddət ərzində şəxsi heyətlə tərbiyə işi qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsinə, xəsarətalma hallarının və nizamnaməədənkənar münasibətlərin qarşısının alınmasına, komandir və rəislərin şəxsi nümunəliyinin təmin olunmasına, kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin yaradılmasına, hərbi qulluqçuların ictimai-siyasi hazırlıq üzrə biliklərinin artırılmasına yönəldilib. Bu məqsədlə qoşunlarda hərbi intizamın vəziyyəti və aparılan tərbiyə işi tədbirləri nəzarətə götürülüb, bu istiqamətdə müvafiq göstəriş və tövsiyələr verilib.

Ötən dövrdə də Daxili Qoşunlarda maddi-texniki bazanın möhkəmləndirilməsi ilə bağlı tədbirlər ardıcıllıqla davam etdirilib, şəxsi heyətin kazarma-məişət şəraiti müasir standartlara uyğunlaşdırılıb, hərbi qulluqçuların zəruri tələbatları təminat normalarına uyğun təmin olunub, tələb olunan texnika və avadanlıqların alınması həyata keçirilib. Qoşunların maddi-texniki təminatının əsas istiqamətləri qarşıda duran vəzifələrin, xüsusən işğaldan azad olunmuş ərazilərdə və xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi üçün tələb olunan vasitələrlə hərbi hissələrin təmin edilməsinə yönəldilib.

Çıxışının sonunda məruzəçi Daxili Qoşunların şəxsi heyətinin bundan sonra da qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsinə həmişə hazır olacağını, hərbi hissə və bölmələrin döyüş hazırlığının daim yüksək saxlanılması, hərbi qulluqçuların peşə hazırlığının artırılması, sağlam mənəvi-psixoloji mühitin yaradılmasının təmin olunacağını bildirib.

Daha sonra bir neçə hərbi hissənin komandirlərinin mövcud vəziyyət, diqqətçəkən nöqsan və çatışmazlıqların yaranma səbəbləri barədə hesabat-çıxışları dinlənilib. Çıxışlar zamanı qeyd olunub ki, ümumilikdə, hərbi hissələr qarşıya qoyulmuş tapşırıqlardan irəli gələn vəzifələri tam həcmdə yerinə yetiriblər.

Müşavirəyə yekun vuran general-leytenant Ş.Məmmədov 2021-ci ilin 1-ci yarımilində Daxili Qoşunların xidməti-döyüş fəaliyyətini ümumən qənaətbəxş hesab edərək, 2021-ci ilin 2-ci yarımilində qarşıya qoyulmuş tapşırıqların uğurla icra edilməsi üçün vəzifəli şəxslərə tapşırıqlar verib, Daxili Qoşunların şəxsi heyətinin bundan sonra da xalqa və dövlətə sadiqliyini nümayiş etdirərək layaqətlə xidmət edəcəyinə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısına cavab olaraq, daxili işlər nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəyinə, polis orqanlarının əməkdaşları ilə birgə ölkədə sabitliyin və ictimai asayişin keşiyində metinliklə dayanacağına əminliyini ifadə edib.

**kapitan Xədicə Hacızadə**

# UEFA "AVRO-2020" FUTBOL YARIŞLARI ZAMANI TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN OLUNUB

Ölkəmizdə son illər təşkil olunan bütün beynəlxalq əhəmiyyətli tədbirlərdə olduğu kimi, futbol üzrə Avropa çempionatının final mərhələsinin Bakı Olimpiya Stadionunda keçirilən oyunları zamanı təhlükəsizliyin təmin olunması ilə əlaqədar daxili işlər orqanları qarşısında konkret vəzifələr qoyulub. Daxili İşlər Nazirliyinin müvafiq tədbirlər planına əsasən, oyunlar ərəfəsi və iyunun 12, 16, 20-də, habelə iyulun 3-ü tarixlərində keçirilən oyunlar zamanı polis əməkdaşları ilə birgə ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi üzrə Daxili Qoşunların qarşısında tapşırıqlar qoyulub, cəlb olunacaq qüvvələrin say tərkibi müəyyən olunub.









Müəyyən edilmiş tapşırıqların layiqincə yerinə yetirilməsi üçün Daxili Qoşunların Baş İdarəsi tərəfindən hazırlıq tədbirləri həyata keçirilib, Bakı Olimpiya Stadionunda, Dənizkənarı Milli Parkın "FAN" zonasında, o cümlədən, bu tədbirlə bağlı nəzərdə tutulmuş qeyri-yarış yerlərində xidmətin aparılmasına cəlb olunacaq qüvvə və vasitələr hazırlanıb.

Yarış ərəfəsində şəxsi heyətin xidmət sahələri üzrə bölgüsü aparılıb, digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyətinin koordinasiyası dəqiqləşdirilib, tədbirin təşkilatçıları, aidiyyəti dövlət qurumları ilə qarşılıqlı əlaqənin təşkili üzrə zəruri tədbirlər görülüb. İyun ayının 9-da Bakı Olimpiya Stadionunda daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov tərəfindən xidmətə cəlb olunan hərbi qulluqçulara sıra baxışı keçirilib, xidmət sahələrində tapşırıqlar dəqiqləşdirilib.

Şəxsi heyət həvalə edilən obyektlərin mühafizəsi, piyadaların və nəqliyyat vasitələrinin yoxlanılması, buraxılış rejiminin təmin olunması üzrə xüsusi məşğələlərə cəlb olunub, onlara tədbirin əhəmiyyəti, qanunçuluq, vətəndaşların hüquq və azadlıqlarının qorunması prinsipləri izah olunub, beynəlxalq əhəmiyyətli yarışın yüksək təhlükəsizlik şəraitində keçirilməsinin ölkəmizin gücünün, qüdrətinin bariz nümunəsi olduğu çatdırılıb.



Bu beynəlxalq tədbirdə istehkamçılar tərəfindən yarış və qeyri-yarış obyektlərinin yoxlanılması həyata keçirilib, qadın hərbi qulluqçularımız da təhlükəsizlik tədbirlərinə cəlb olunaraq xüsusi buraxılış rejiminin təmin olunması üzrə vəzifələrini yüksək sayıqlıqla yerinə yetiriblər.

Tədbirə cəlb edilən şəxsi heyət bütün növ maddi-texniki təchizat vasitələri ilə təchiz olunub və xüsusi geyim forması ilə təmin edilib.

Keçirilən oyunlar zamanı mühafizə və xüsusi buraxılış rejimi ilə bağlı xidmət yüksək səviyyədə təşkil olunub, qanun pozuntusu qeydə alınmayıb. Bununla da vurğulanmalıdır ki, qoşunların şəxsi heyəti növbəti dəfə mühüm beynəlxalq idman tədbirində qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlib.

**baş leytenant Nigar Ağayeva**

3_Layout 1 14.07.2021 9:57 Page 1



*Şəhidlərimiz*

# Vətənpərvər və qorxubilməz döyüşçü idi...

44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq nümunələri ilə zəngin olan hər bir hərbi əməliyyatın, o cümlədən, Füzuli uğrunda gedən döyüşlərin dərindən öyrənilməsi və cəmiyyətdə geniş təbliğ olunması vətənpərvərlik ruhunun yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev 2020-ci il oktyabrın 17-də xalqa etdiyi müraciətində bu döyüşlərin tarixi əhəmiyyətini vurğulayaraq, cəsur oğullarımızın göstərdiyi qəhrəmanlıq nümunələrini yüksək qiymətləndirib: “Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək, bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da, çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi”.

Vətən müharibəsi zamanı Füzuli uğrunda son damla qanınadək döyüşərək şəhidlik zirvəsinə ucalmış cəsur silahdaşlarımızdan biri də kiçik gizir Məmmədov Anar Zəhəddin oğludur.

Kiçik gizir Anar Məmmədov 1992-ci il oktyabrın 25-də Saatlı rayonunun Azadkənd kəndində anadan olub. Zəhəddin Məmmədovun və Qabiliyyət Məmmədovanın böyüdüb tərbiyə etdiyi üç övladın (Səkinə, Anar və Azər) ortancılı idi...

Təhsil aldığı Vüqar Əzimov adına Saatlı rayonu Qıraqlı kənd tam orta məktəbin 9-cu sinfini bitirən Anar Sabirabad rayonundakı Sosial-İqtisad Kollecinə qəbul olunub. 2012-ci ildə kolleci “Dövlət yol polisində inzibati hüquq fəaliyyəti-yol polisi müfəttişliyi” ixtisası üzrə bitirib. Hələ uşaq yaşlarından idmana böyük marağı olduğundan, təhsil aldığı illərdə məşğul olduğu qaydasız döyüş və boks idman növləri üzrə dəfələrlə yüksək nəticələr göstərib, respublika çempionu adını qazanıb. Məhz bu baxımdan Anarın ən böyük arzularından biri də gələcəkdə bu idman növləri üzrə iştirak edəcəyi beynəlxalq yarışlarda parlaq qələbələr qazanaraq, üçrəngli bayrağımızı yüksək zirvələrdə dalğalandırmaq olub.



Müddətli həqiqi hərbi xidmətini 2012-ci ilin iyul ayından 2014-cü ilin yanvar ayınadək Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində keçib. Lakin hərbi xidmətə olan böyük marağı səbəbindən yenidən ordu sıralarına qayıtmaq qərarını verib. Beləliklə, qısa fasilədən sonra, yəni 2014-cü ilin aprel ayından Daxili Qoşunların 25033 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən Vətənə olan şərəfli borcunu vicdanla yerinə yetirməyə başlayıb. 2014-cü ilin dekabr ayından xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda qumbaraatan köməkçisi, atıcı-qumbaraatan köməkçisi vəzifələrində xidmətini davam etdirən Anar 2019-cu ilin dekabr ayından etibarən xüsusi həmlə qrupunda yarımqrup komandiri vəzifəsini şərəflə yerinə yetirib. Yarımqrup komandiri kimi bilik və bacarığı sayəsində hər zaman böyük rəislərin etimadını doğruldub, eləcə də tabeliyində olan şəxsi heyətin hörmətini qazanmaqla, onlara nümunə olmağı bacarıb. Əsl xüsusi təyinatlıya xas olan yüksək döyüş hazırlığı və əzmkarlığı ilə qazandığı “Zoğalı beret”i də hər zaman böyük qürur hissi ilə daşıyıb.

25033 saylı hərbi hissədə “Gürzə” şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri mayor Cavid Tağıyev (Vətən müharibəsi zamanı Şuşa istiqamətində gedən döyüşlərdə yaralanıb) vaxtilə birgə xidmət etdiyi kiçik gizir A.Məmmədovu vətənpərvər, hərbçi peşəsini sevən əsl döyüşçü, eyni zamanda, yoldaşlığa önəm verən sağlam əqidəli bir insan kimi hər zaman xatırlayacağını bildirdi: “Anar hər zaman tələbkar və bacarıqlı yarımqrup komandirlərindən biri olub. Əlbəyaxa döyüş fəndlərini çox yaxşı bilirdi. Vətənə məhəbbət, düşmənə nifrət ruhunda döyüş əməliyyatlarında iştirak etmək onun ən böyük arzusu və xüsusi təyinatlı amalı idi.

Son dərəcə mərd, ədalətli və mərhəmətli olması isə deyərdim ki, Anarın təfəkkür və davranışlarının əsas özəyini təşkil edirdi. Məhz bu xüsusiyyətlərinə görə də kollektivin, o cümlədən, onu yaxından tanıyan hər kəsin dərin hörmət və rəğbətini qazanmışdı”.

**17 oktyabr 2020-ci il...** Füzuli istiqamətində “Karyer” deyilən ərazidə gedən döyüş Anarın ilk və son döyüşü oldu. Onunla birgə bu döyüşdə iştirak etmiş “Gürzə” xüsusi təyinatlı dəstəsində yarımqrup komandiri, 3-cü dərəcəli “Rəşadət” ordeni, “Şuşanın azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilmiş baş çavuş Kənan Kərimov cəsur silahdaşının döyüş meydanında göstərdiyi qəhrəmanlıq nümunələri ilə hər zaman qürur duyacağını bildirdi: “Anarla birgə Vətən müharibəsi zamanı qatıldığımız ilk və son döyüş 2020-ci il oktyabrın 17-də Füzuli istiqamətində, “Karyer” deyilən ərazidə olub. Dəstəmizin qarşısına ermənilərin burada yerləşən və “Beton post” deyilən möhkəmləndirilmiş mövqelərini almaq tapşırığı qoyulmuşdu. Müxtəlif cinahlardan düşmən üzərinə hücum etmək üçün dəstəmiz əməliyyat planına uyğun olaraq ayrı-ayrı qruplara bölünmüşdü. Bizim qrup kapitan Taleh Rüstəmlinin rəhbərliyi altında sağ cinahdan düşmən mövqeyi istiqamətində hərəkətə başladı. İrəlilədiyimiz yollar olduqca təhlükəli idi. Belə ki, ərazi açıqlıq olduğundan və ermənilərin müşahidə postları yüksəklikdə yerləşdiyindən, mənfur düşmən hərəkət etdiyimiz yolları uzaq məsafədən minaatan atəşinə məruz qoyurdu. Lakin bütün bunlara baxmayaraq, tərkibində kiçik gizir A.Məmmədovun da olduğu qrupumuzun cəsur xüsusi təyinatlıları – gizirlər Aydın Rzayev, Məmməd Məsimov, baş çavuş Vüsal Xasməmmədov, çavuşlar Zamiq Ağayev, İlkin Abuyev, Elvin Abbasov, Heydər Heydərov və əsgər Fərid Seyfullayev (Şuşa



istiqamətində gedən döyüşdə şəhid olub) gözlərini belə qırpmadan irəliləyərək, düşməni məhv edib postu aldılar. Qorxuya düşən və vuruşmağa cəsarəti çatmayan ermənilər xeyli sayda silah-sursatını, eləcə də artilleriya qurğularını postda atıb qaçmışdılar.

Bu uğurlu əməliyyatdan sonra aldığımız növbəti tapşırığa uyğun digər qrupumuzla birləşib yenidən hücumu davam etdirmək üçün hərəkətə başladıq. Artıq axşam düşmüşdü. Qruplar arasında xeyli məsafə vardı. Hərəkətdə olduğumuz vaxt qəfildən erməni silahlılarının pusqusuna düşdük. Şiddətli atışma başladı. Bir müddət vuruşduqdan sonra düşmən gülləsinə tuş gələn cəsur silahdaşımız kiçik gizir Anar Məmmədov qəhrəmancasına şəhid oldu. Digər silahdaşımız çavuş E.Abbasov isə ayağından güllə yarası aldı. Mən Elvini sürüyərək yaxınlıqdakı çökəklik əraziyə gətirdim, elə oradaca ona gizir A.Rzayev tərəfindən ilkin tibbi yardım göstərildi. Bu ərazidə mövqelənib, yenidən düşmənin əlinə keçməməsi üçün azad etdiyimiz postun müdafiəsində dayandıq”.

Şuşayadək döyüş yolu keçən baş çavuş K.Kərimov sonrakı döyüşlərdə şəhid olmuş və yaralanmış silahdaşlarının intiqamının ermənilərdən artıqlaması ilə alınmasının onların ən böyük təsəllisi olduğunu dedi.

Kiçik gizir A.Məmmədov 2020-ci il oktyabrın 18-də Saatlı rayonunun Qıraqlı kənd qəbiristanlığında dəfn olunub. Evli idi. Solmaz adlı bir qız övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli və 25 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə kiçik gizir Məmmədov Anar Zəhəddin oğlu (ölümündən sonra) “Vətən uğrunda” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.

Anarın ailə üzvlərinin xatirələri əsasında Azərbaycan Dövlət Televiziyası, eləcə də “ARB” və “Azad Azərbaycan” televiziya kanalları tərəfindən şəhid hərbi qulluqçumuzun gənc nəsilə nümunə olan həyat və döyüş yolu barədə məlumatlar izləyicilərə təqdim edilib.

Onu da qeyd edim ki, Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun diqqət və qayğısı nəticəsində şəhid hərbi qulluqçumuzun qardaşı Azər daxili işlər orqanlarında xidmətə qəbul edilib. Azər Məmmədov hazırda Saatlı Rayon Polis Şöbəsində post-patrul xidməti bölüyünün polis nəfəri vəzifəsindədir.

“Bir Anar itirdim, min Anar qazandım” - deyən hörmətli şəhid atası Zəhəddin Məmmədovun qeyd etdiyi kimi, bu gün də Anartək əldə silah Vətənimizin keşiyində ayıq-sayıq dayanıb xidmət aparan və onun uğrunda canından keçməyə hər zaman hazır olan minlərlə igid silahdaşımız var. Vətən uğrunda canını qurban verən qəhrəman oğullarımızın əziz xatirəsi isə qədirbilən xalqımızın qəlbində əbədi olaraq yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

*Qazilərimiz*

# Xüsusi təyinatlı əzmkarlığı ilə fərqlənən cəsur döyüşçü...

44 gün davam edən Vətən müharibəsi 30 ilə yaxın erməni işğalı altında qalan torpaqlarımızın azad olunması ilə nəticələndi. Bu müharibədə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları döyüş tapşırıqlarını uğurla yerinə yetirərək şücaət nümunələri göstəriblər. Onlardan döyüşlərə qumbaraatan kimi qatılan çavuş Beydiyev Ənvər Çingiz oğlu şərəfli döyüş yolu keçən mərd oğullarımızdan biridir.

Çavuş Ənvər Beydiyev 1992-ci il iyunun 13-də Şəki rayonunun Oxud kəndində anadan olub. 1998-2010-cu illərdə doğma kəndindəki Nurpaşa Hümmətov adına tam orta məktəbdə təhsil alıb.

2010-cu ilin iyul ayından 2012-ci ilin yanvar ayınadək Ənvər Dövlət Sərhəd Xidmətinin sıralarında müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmətdən qayıtdıqdan sonra 3 il Şəki Rayonlararası Mühafizə Şöbəsində mülki mühafizəçi vəzifəsində işləyib. O, 2016-cı ilin mart ayında Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmət etmək üçün sənədlərini verərək, 25033 saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsində atıcı vəzifəsinə təyin olunub. Həmin ilin dekabr ayında isə xüsusi təyinatlı dəstəyə keçirilib. Xüsusi təyinatlı dəstənin atəş təminatı və xüsusi həmlə qrupunda heyət nəfəri vəzifəsində xidmət edən hərbi qulluqçumuz 2020-ci ilin may ayında xüsusi həmlə qrupunda atıcı-qumbaraatan vəzifəsinə təyin edilib. Vətən müharibəsi başlayana qədər bu vəzifədə xidmət edən Ənvər xüsusi təyinatlıların sırasında torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qoşulub. Xüsusi təyinatlı kimi də təlim və məşğələlərdə qazandığı təcrübə döyüş sınağında onun köməyinə yetib.

Qazimiz Vətən müharibəsində ön sıralarda döyüşən dəstələrdə olub. Füzuli, Cəbrayıl və Şuşa istiqamətlərində aparılan hərbi əməliyyatlarda fəal iştirak edib.

2020-ci ilin oktyabr ayının 17-də çavuş Ə.Beydiyev Füzuli rayonunun ərazisində döyüş əməliyyatına cəlb olunub. “Beton post” adlanan ərazidə şiddətli döyüşün getdiyini bildirdi: “Düşmənin artilleriya vasitələrinin atəşinə məruz qaldıq. Çoxlu sayda minaatan mərmisi atılırdı. Lakin düşməni





məhv edərək möhkəmləndirilmiş postlarını tutmağa müvəffəq olduq. Bu döyüşdə dəstəmizin hərbi qulluqçusu kiçik gizir Anar Məmmədov qəhrəmancasına şəhid oldu”.

Ənvərin daxil olduğu qrup buradan Cəbrayıl rayonunun ərazisinə göndərilib. İşğaldan azad olunan Cəbrayıl rayonunda axtarış əməliyyatlarında iştirak ediblər.

Digər bölmələrlə yanaşı, bu qrupun da qarşısına qoyulan növbəti döyüş tapşırığı Şuşanın azad olunması olub. Hərbi qulluqçumuz Şuşa döyüşlərində də öz mətinliyi ilə fərqlənib. Ən qaynar nöqtələrdə bacarıqlı, qətiyyətli hərbçi kimi döyüşüb, düşmənə sarsıdıcı zərbələr vurmaqla onu texnika və canlı qüvvə sarıdan itkiyə uğradıb.

Döyüşçülərimiz Şuşaya meşə və dağ keçidlərini aşaraq həmlə ediblər. Ənvərin daxil olduğu qrup bir neçə gün yol qət edərək Şuşanın ətrafına yaxınlaşıb. Şəhərin yaxınlığında əlverişli mövqelərin tutulması, düşmənin köməyə gələ biləcək canlı qüvvəsinin qarşısının alınması tapşırıqları verilib.

Onların qrupu mayor Cavid Tağıyevin rəhbərliyi altında (hazırda 25033 saylı hərbi hissədə “Gürzə” şərti adı daşıyan xüsusi təyinatlı dəstənin komandiri) Şuşa ətrafındakı meşəlik ərazidə irəliləyərək Xankəndidən Şuşaya gələn yolu nəzarətə götürmək üçün “Zapravka” deyilən əraziyə istiqamət alıblar. Ənvər burada noyabr ayının 6-da yaxın məsafədə gərgin döyüşlərin getdiyini bildirdi: “Həmin əraziyə çatanda düşmən zirehli texnika ilə bizim qüvvələri atəşə tutmağa başladı. Qrupun tərkibində iriçaplı silahlar az olduğundan, düşmənin zirehli texnikalarına qarşı mübarizə aparmaq çətin idi. Mənim RPQ-7 qumbaraatanı ilə düşmənin zirehli texnikasına atəş açmağım nəticəsində 2 tank zərbə alaraq geri çəkildi. İşğalçıların xeyli sayda canlı qüvvəsi isə məhv edildi. Yaralanan hərbi qulluqçularımız oldu. Düşmən tankından bizim mövqeyə atılan mərminin qəlpələri mayor Cavid Tağıyevi qolundan və ayağından yaraladı. Ona dəstənin feldşeri gizir Aydın Rzayev ilkin tibbi yardım göstərdi. Biz onların şəxsi heyət daşıyan avtomobillərini atəşə tutaraq məhv edirdik. Düşmən iriçaplı silahlarımızın sursatının tükəndiyini başa düşdüyündən, öz hərbi qulluqçularını zirehli texnika ilə aparmağa başladı”.

Qazimiz yaralanmasını belə xatırladı: “Düşmən yaxın məsafədə döyüşdə məğlub olduğundan, uzaq məsafədən mövqelərimizi tank və minaatanlardan atəşə tuturdu. Noyabr ayının 6-da axşam vaxtı Şuşa-Xankəndi yolunda düşmən tankından bizim mövqeyə atılan mərminin partlaması nəticəsində ayaqlarımdan qəlpə yarası aldım. Mənimlə pusquda olan xüsusi təyinatlı qüvvələrin 2 nəfər zabiti də yaralandı. Yaralı vəziyyətdə meşə istiqamətində təxminən 100 metrə kimi süründüm. Meşədə digər yaralılarımızın saxlandığı yerə gəldim. Yaralanmağıma baxmayaraq, bu halda həmin gün və səhəri gün axşama qədər döyüşçü yoldaşlarımla birlikdə döyüşü davam etdirdim. Burada dəstəmizin hərbi qulluqçularından kömək üçün gələn baş çavuş Kənan Kərimov, çavuşlar Mehrac Qarayev və Zamiq Ağayevin də olduğu təxminən 15 nəfərlik qrup yaralılarımızın düşmənə əsir düşməsinin qarşısını almaq üçün mövqelənərək atəş nöqtələri qurmuşdu. Onlar, həmçinin, Xankəndi istiqamətindən Şuşaya gələn işğalçıların qüvvələrini pusquya salaraq məhv edirdilər. Düşmən burada yaralıların və pusqu qrupunun olduğunu müəyyən etdiyindən, tank və 100 nəfərə yaxın canlı qüvvə ilə bizim tərəfə həmləyə keçdi. Sayca üstün olan düşmənə qarşı qorxmadan yaxın məsafədə mübarizə aparırdıq. Düşmən tankının yaxınlaşdığını görən baş çavuş Kənan Kərimov məsafənin təxminən 20 metrliyində tankın qarşısına çıxaraq qumbaraatanla atəş açdı. Bu atışdan zərbə alan tank Xankəndi istiqamətində geri çəkildi. Bundan qorxuya düşüb qaçmağa cəhd edən düşmənin 100 nəfərə yaxın canlı qüvvəsi məhv edildi”.

Ənvər düşmənin bir neçə zirehli texnikasını sərrast atışları ilə sıradan çıxaran, canlı qüvvəsini ciddi itkiyə məruz qoyan, döyüşçülərimizin irəliləməsində hünər göstərən, onunla birlikdə xidmət etmiş baş çavuş Kənan Kərimovun, çavuşlar Mehrac Qarayev və Zamiq Ağayevin xidmətlərinin unudulmayacağını bildirdi.

Hərbi qulluqçumuz noyabrın 8-də döyüş bölgəsindən təxliyyə olunaraq Hadruta gətirilib. Füzuli, Gəncə və Ağcabədidə müalicə alan qazimiz daha sonra müalicəsini Daxili Qoşunların Hərbi Qospitalında davam etdirib. Ənvər burada tibb işçilərinin ona xüsusi diqqət və qayğı göstərdiklərini vurğuladı.

Ənvərin yarımqrup komandiri, 3-cü dərəcəli “Rəşadət” ordeni, “Şuşanın azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilmiş baş çavuş Kənan Kərimov onunla birlikdə Şuşa ətrafında bir sıra döyüş tapşırıqlarını yerinə yetirdiklərini söylədi: “Ənvər olduqca vətənpərvər bir hərbi qulluqçu olduğunu döyüş meydanında göstərdi. O, qumbaraatan olduğundan şəxsi heyətdən bir az öndə gedib. Düşmənin bir neçə zirehli texnikasını sıradan çıxarıb. Düşmən texnikasının sıradan çıxarılması nəticəsində döyüşçülərimizin az itki ilə irəliləməsinə imkan yaradıb. Ənvər hətta düşmənin öz silahı - snayperi ilə çoxlu sayda atəş nöqtəsini susdurub”.

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2020-ci il tarixli, 25 dekabr 2020-ci il tarixli və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Ə.Beydiyev “Cəsur döyüşçü”, “Füzulinin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

Hazırda xidmətini davam etdirən çavuş Ə.Beydiyev xidmət etdiyi dəstənin qarşısına qoyulan tapşırıqların yerinə yetirilməsində öz ayıq-sayıqlığı və çevikliyi ilə komandanlıq tərəfindən müsbət xarakterizə olunur. 2021-ci ilin may ayında Azərbaycan sərhəddini pozaraq silahlı insidentdən sonra hadisə yerindən qaçan və Yardımlı rayonunun ərazisində gizlənən İran vətəndaşlarının zərərsizləşdirilməsi üzrə əməliyyatda da fəal iştirak edib.

Belə hərbi qulluqçularımızın fədakar xidməti şəxsi heyət üçün layiqli nümunədir.

**kapitan Sadıq Rəfiyev**

4 - 2_Layout 1 14.07.2021 9:55 Page 1



# ÇAĞIRIŞÇILARIN QƏBULU VƏ TƏLİMİ UĞURLA HƏYATA KEÇİRİLİR

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən, iyul ayının 1-dən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi başlayıb. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" əmri ilə çağırışçıların tibbi müayinəsinin aparılması və mənəvi-psixoloji durumunun qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili Qoşunların Baş İdarəsinin qərargahında təşkilat və komplektləşdirmə şöbəsinin rəisi polkovnik Xalid Bağırov seçim qrupunun rəhbəri təyin edilib.





Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Müşfiq Xankişiyev bildirdi ki, çağırışçıların xidmətə qəbulu, yerləşdirilməsi və hərbi anda gətirilənədək müvafiq qaydada hazırlanması Daxili Qoşunların komandanlığının diqqət yetirdiyi ən vacib məsələlərdən biridir. Çağırışçıların hərbi xidmətə tədricən uyğunlaşmaları, hərbi nizamnamələrin müddəaları ilə tanış olmaları, eləcə də mənəvi-psixoloji durumlarının yüksək səviyyədə saxlanılması təsdiq edilmiş tədbirlər planına əsasən icra edilir. İlk olaraq, mənəvi-psixoloji hazırlıq planları hazırlanıb və hərbi hissə komandiri tərəfindən təsdiq olunub.

Xidmətə yeni qəbul edilmiş əsgərlərin 45 günlük təlim dövründə bütün tədbirlər həmin plana əsasən həyata keçirilir. Təlim dövründə sıra, ictimai-siyasi, fiziki və atəş hazırlığı məşğələlərinə xüsusi diqqət yetirilir. Daxili Qoşunların təyinatı və vəzifələri, istifadədə olan silahların taktiki-texniki xüsusiyyətləri, nişanalma və təhlükəsizlik qaydaları, hərbi qulluqçular arasında qarşılıqlı münasibətləri özündə əks etdirən müvafiq nizamnamələrin maddələri ilə bərabər, qanunvericilik aktlarının aidiyyəti müddəaları da onlara öyrədilir. Sonuncu həftədə isə praktiki atışlar yerinə yetirilir və hər bir əsgər fərdi qaydada qiymətləndirilir.

Polkovnik-leytenant M.Xankişiyev onu da söylədi ki, çağırışçılar hərbi həkim komissiyasından keçməzdən əvvəl qəbul məntəqəsində seçim qrupunun üzvləri - Daxili Qoşunların Baş İdarəsində şəxsi heyət üzrə idarənin mənəvi-psixoloji hazırlıq şöbəsində zabit polkovnik-leytenant Xalid Hüseynov, mətbuat xidmətində zabit kapitan Sadıq Rəfiyev, 25031 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsində təlimatçı baş leytenant Nail Nəzirov və 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində xüsusi vasitələrin tətbiqi bölməsi komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Ruhin Məmmədov tərəfindən onlarla söhbətlər aparılır.

Söhbət zamanı çağırışçıların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşləri, Vətənə bağlılığı, orduya münasibəti, sosial vəziyyəti, təhsili, bacarıq və işgüzar keyfiyyətləri, yaxın qohumlarının məhkumluğunun olub-olmaması ətraflı öyrənilir. Həmçinin, onlara hərbi xidmətin üstünlükləri izah edilir, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslərin, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durumun yüksəldilməsi məqsədilə Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında məlumat verilir. Bütün məlumatlar toplandıqdan sonra hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanır və hərbi hissəyə təqdim olunur.





Çağırışçılar növbə ilə həkim-terapevt, həkim-stomatoloq, baş ordinator-oftalmoloq, baş ordinator-kardioloq, baş ordinator-rentgenoloq tərəfindən müayinə olunur, onlara ümumi bədən baxışı keçirilir, həmçinin, profilaktik-flüoroqrafik müayinədən keçirilmələri təmin olunur.

Çağırışçıların tibbi müayinədən keçirilməsi barədə məlumat verən qrupun üzvü - Daxili Qoşunların Baş İdarəsinin tibb xidmətində sanitar-epidemiologiya dəstəsinin rəisi-baş sanitar həkim tibb xidməti polkovnik-leytenantı Vüqar İbrahimov vurğuladı ki, nəzarət-buraxılış məntəqəsində hərbi hissəyə gətirilən bütün çağırışçıların hərarəti ölçülür və hər biri tibbi maska ilə təmin olunur. Növbə ilə həkimlər tərəfindən yoxlanıldıqdan sonra, bütün dünyada və ölkəmizdə yayılan koronovirus xəstəliyi ilə əlaqədar olaraq TƏBİB-in həkimləri tərəfindən bütün çağırışçılardan analizlər götürülür. Müayinələrdən keçən çağırışçılar barədə hərbi həkim komissiyası tərəfindən rəylər verilir və onlar yalnız praktiki sağlam hesab olunduqları halda hərbi xidmətə qəbul olunurlar. O, tibbi personalın normal işi üçün hərbi hissədə bütün zəruri şəraitin yaradıldığını, həmçinin, gündəlik olaraq bölmələrdə hərbi qulluqçuların səhhətinin yoxlanıldığını, tibbi maskadan və əlcəklərdən istifadə qaydaları barədə onlarla söhbətlər aparıldığını da sözlərinə əlavə etdi.

Çağırışçıların əşya əmlakları, eləcə də bədən ölçülərinə uyğun olan geyimlərlə təmin olunmaları da diqqətdə saxlanılır. Bundan əlavə, onlarla hərbi hissədə bölük və taqım komandirləri tərəfindən tərbiyəvi söhbətlər aparılır, hərbi xidmətə adaptasiya olunmaları üçün müvafiq məsləhətlər verilir.

Bütün bunlar onu deməyə əsas verir ki, çağırışçıların qəbulu prosesi Daxili Qoşunlar komandanlığının nəzarəti altında uğurla həyata keçirilir.

**kapitan Xədicə Hacızadə**

# Xidməti fəaliyyəti müsbət xarakterizə olunan bölük

Hərbi hissənin döyüş xidməti dedikdə, ilk növbədə, Döyüş Bayrağının, anbarların, hərbi hissənin obyektlərinin mühafizə və müdafiəsi ağlımıza gəlir. Bu baxımdan 25032 saylı hərbi hissənin komendant bölüyü hissənin etibarlı şəkildə qorunmasını həyata keçirir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan bölüyün şəxsi heyəti daim ayıq-sayıqlığı və əzmkarlığı ilə fərqlənir.

Bölük komandiri kapitan Sənan Baxışov söhbət zamanı qarşıya qoyulan mühüm tapşırıqların əhəmiyyətini, döyüş xidmətinə cəlb olunan hərbi qulluqçuların digərlərindən fərqləndiyini diqqətə çatdırdı. Bildirdi ki, məsuliyyətli, eyni zamanda, mühüm vəzifəni yerinə yetirmək üçün bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, mənəvi-psixoloji durumunun qənaətbəxş və atəş hazırlığının yüksək səviyyədə olması vacib amillərdir. Bu gün xidmətə cəlb olunan şəxsi heyətdə sadalanan keyfiyyətlərin olduğunu deyən kapitan S.Baxışov hərbi qulluqçularla keçirilən məşğələlərin əhəmiyyətini önə çəkdi. Bildirdi ki, məşğələlər şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına təkan verir. O, yüksək fiziki göstəriciyə, zəruri hərbi savada malik, eləcə də müsbət mənəvi cəhətləri olan əsgərin əzmkar döyüşçü olduğunu vurğuladı. Bundan əlavə, komendant bölüyündə xidmətin çətin, lakin şərəfli olduğunu və döyüş xidmətinə seçilən hərbi qulluqçuların hər birinin əzmkarlığını xüsusi qeyd etdi.




Qeyd edək ki, kapitan S.Baxışov 2018-ci ilin mart ayından 25032 saylı hərbi hissənin komendant bölüyünün komandiri vəzifəsindədir. Üzərinə düşən vəzifələrin icrası zamanı sayıqlıq, peşəkarlıq nümayiş etdirir. O, bölüyün döyüş hazırlığına, məşğələlərin təşkilinə və aparılmasına, maddi-tədris bazası obyektlərinin, tədris cihazlarının və avadanlıqlarının saz saxlanılmasına, kütləvi idman işinə, daxili qayda-qanuna və hərbi intizama riayət edilməsinə cavabdehlik daşıyır.




Bölüyün komandir heyəti tabeliyində olan şəxsi heyətin mənəvi keyfiyyətlərini nəzərə alaraq, onların hərbi nizamnamələrin tələblərinə, hərbi intizama sözsüz əməl etmələrinə, ən əsası, döyüş hazırlıqlarını hər zaman yüksək səviyyədə qoruyub saxlamalarına daima diqqət yetirir.



Bölüyün hərbi qulluqçularının asudə vaxtlarının səmərəli təşkil olunmasını bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Rəfael Lətifov hər zaman diqqətdə saxlayır. Burada hərbi qulluqçuların istirahəti üçün lazımi şərait yaradılıb. Belə ki, asudə vaxtlarda şəxsi heyət mətbuatı mütaliə edir, stolüstü oyunlar oynayır, qulaqcıqlar vasitəsilə radioya qulaq asır. Baş leytenant R.Lətifov hərbi qulluqçuların fiziki və atəş hazırlığının yüksək olması ilə yanaşı, həm də hər birinin sağlam səhhətə, düzgün düşüncəyə malik olmasının vacibliyini vurğuladı. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçuların seçilməsi nəzarətdə saxlanılır.

Bölük komandiri kapitan S.Baxışov hər zaman çalışqanlığı, intizamı və nümunəvi xidmətilə seçilən hərbi qulluqçulardan leytenant Nihad Sərdarlı, gizir Namik Məmmədov, çavuş Rəmzi Musazadə, əsgərlər Famil Məhərrəmov və Çapay Bağırovun adlarını çəkərək, onların yoldaşlarına nümunə olduqlarını qeyd etdi.

**kapitan Sadıq Rəfiyev**

*Nümunəvi xidmət*

# İntizamlı radiotelefonçu əsgər

99713 saylı hərbi hissənin intizamlı, bacarıqlı əsgəri Zəka Səmədzadə üzərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşır. O, 2002-ci il aprelin 21-də Biləsuvar rayonunun Ağayrı kəndində anadan olub. 2019-cu ildə Biləsuvar rayonu Vüqar Rüstəmov adına tam orta məktəbi bitirib. Hələ uşaq yaşlarından peşəkar səviyyədə idmanın karate növü ilə məşğul olub. Bir çox təltifolunmaları var.



2020-ci ildə Daxili Qoşunların 25031 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlayıb. Elə həmin ilin iyun ayında Daxili Qoşunların 25032 saylı hərbi hissəsində rabitə kursuna qəbul olunub. Əsgər Z.Səmədzadə bildirdi ki, üç ay davam edən kursda müxtəlif rabitə vasitələrinə texniki qulluğun göstərilməsi, şəbəkə təhlükəsizliyi, çoxkanallı və təkkanallı rabitə avadanlıqlarının istifadəsi qaydaları və başqa mövzularda məşğələlər keçirilib. Kursu uğurla başa vuran hərbi qulluqçumuz avqustun 14-də 99713 saylı hərbi hissəsinin rabitə xidmətində radiotelefonçu vəzifəsinə təyin olunub və bu gün də həmin vəzifədə xidmətini davam etdirməkdədir.

Üzərinə düşən vəzifələrin məsuliyyətini dərk edən əsgər Z.Səmədzadə hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Qarşıya qoyulan tapşırıqların icrasında hər zaman sayıqlıq göstərir. Verilən göstərişlərin keyfiyyətlə yerinə yetirilməsinə çalışır.

Vətənə olan borcunu sona kimi ləyaqətlə yerinə yetirməyi düşünən əsgərimiz müddətli hərbi xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmək arzusundadır.

Biz də, öz növbəmizdə, ona gələcək xidmətində nailiyyətlər arzulayır, uğurlarının davamlı olmasını diləyirik.

**baş leytenant Nigar Ağayeva**

# Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik-leytenant Yaşar Hüseynova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların komandanlığı mayor Telman Əliyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000